| 1. HESABATIN XÜLASƏSİ | | |
|---|---|---|
| **1.1.1** | Sığortaçının institusional fəaliyyəti və biznes əməliyyatlarının nəticələri | "Meqa Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti 19.02.2021-ci il tarixindən etibarən Mərkəzi Bank tərəfindən verilmiş lisenziya əsasında həyat sığortası üzrə sıöorta fəaliyyətini həyata keçirir. Şirkət 31.10.2024-cü il tarixində müddətsiz lisenziya əldə etmişdir. Şirkət 4 sığorta sinifi üzrə fəaliyyət göstərir və Azərbaycan Respublikasının müxtəlif ərazilərində filialları mövcuddur. Şirkətin biznes əməliyyatları ilə bağlı ətraflı məlumat hesabatın müvafiq bölmələrində əks olunmuşdur. |
| **1.1.2** | Korporativ idarəetmə çərçivəsi | Şirkətdə korporativ idarəetmə Səhmdarların Ümumi Yığıncağı, Direktorlar Şurası və İdarə Heyətindən ibarət üçpilləli idarəetmə modelinə əsaslanır. Hər idarəetmə orqanının səlahiyyətləri Nizamnamə ilə müəyyən edilmişdir. Şirkətdə korporativ idarəetmə çərçivəsi Mülki Məcəllə, "Sığorta fəaliyyəti haqqında" Qanun və "Sığortaçılarda korporativ idarəetmə Standartları" əsasında qurulmuşdur. |
| **1.1.3** | Aktivlərin və öhdəliklərin təsnifatı | Aktivlərin təsnifatı investisiya və likvidlik xüsusiyyətlərinə, öhdəliklərin təsnifatı isə sığorta müqavilələri üzrə öhdəlik müddətlərinə əsasən aparılır. Aktivlər uzunmüddətli və qısamüddətli aktivlər üzrə təsnif edilir. Uzunmüddətli aktivlərə əsas vəsaitlər, qeyri-maddi aktivlər və maliyyə investisiyaları, qısamüddətli aktivlərə isə debitor borcları, pul vəsaitləri, qısamüddətli maliyyə aktivləri və sığorta ehtiyatlarında təkrarsığortaçıların payı daxildir. Öhdəliklər cari öhdəliklər və həyat sığortası üzrə ehtiyatlar daxil olmaqla uzunmüddətli öhdəliklər üzrə qruplaşdırılır. |
| **1.1.4** | Kapitalın idarə edilməsi | Cəmiyyət kapitalın idarə edilməsini risklərin effektiv idarə olunması, ödəmə qabiliyyətinin qorunması və maliyyə sabitliyinin təmin edilməsi prinsipləri əsasında həyata keçirir. |
| **1.1.5** | Sığortaçının bazar davranışları | Şirkət bazar davranışları istiqamətində müştərilərlə ədalətli rəftar, şəxsi məlumatların məxfiliyinin qorunması və sığorta ödənişlərinin vaxtında verilməsi prinsiplərini fəaliyyətinin əsas prioriteti kimi müəyyən edir, şikayət və mübahisələrinin həlli üçün müvafiq prosedurlar və mexanizmlər tətbiq edir. |

| 2. SIĞORTAÇININ İNSTİTUSİONAL FƏALİYYƏTİ VƏ BİZNES ƏMƏLİYYATLARININ NƏTİCƏLƏRİ | | |
|---|---|---|
| **2.1.1** | Sığortaçının adı, təşkilati-hüquqi forması, VÖEN-i, hüquqi və faktiki ünvanı, sığorta və təkrarsığorta fəaliyyəti üzrə lisenziya nömrəsi və tarixi | "Meqa Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti, 1504764661,<br>Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi 19A,<br>Lisenziya nömrəsi: SF-0006 (31.10.2024) |
| **2.1.2** | Sığortaçı müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər qrupuna (holdinqə) daxildirsə, şirkətlər qrupunun (holdinqin) adı və əlaqə məlumatları | "Meqa Sığorta" ASC-nin törəmə Cəmiyyətidir. Tel: *8778 |
| **2.1.3** | Sığortaçının fəaliyyət göstərdiyi əsas sığorta sinifləri | 1) həyatın ölüm halıından sığortası<br>2) həyatın yaşam sığortası<br>3) istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta<br>4) sağalmaz xəstəliklərdən sığorta |
| **2.1.4** | Sığortaçının yerli filial və nümayəndəlikləri və törəmə cəmiyyətləri barədə məlumat | **Filiallar**: Mərkəz filialı, Qarabağ filialı, Sumqayıt filialı |
| **2.1.5** | Sığortaçının yerli və xarici müstəqil auditorların adı, əlaqə məlumatları və audit istiqamətləri | **Yerli müstəqil auditor**: İlham Süleyman oğlu Süleyman, (+994 50) 201-66-10, Cəmiyyətin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MBHS) uyğun tərtib edilməsinin yoxlanılması<br>**Xarici müstəqil auditor**: "RSM Azerbaijan" LLC, (+994 12) 480 45 71, Cəmiyyətin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MBHS) uyğun tərtib edilməsinin yoxlanılması |
| **2.1.6** | Sığortaçının nizamnamə kapitalında müvafiq iştirak payına malik olan səhmdarlar və onların iştirak payları | "Meqa Sığorta" ASC - 100% |
| **2.1.7** | Sığortaçı şirkətlər qrupuna (holdinqə) daxildirsə, şirkətlər qrupunun (holdinqin) təşkilati strukturunda sığortaçının yeri | "Meqa Sığorta" ASC-nin törəmə Cəmiyyətidir. |
| **2.1.8** | İnkişaf siyasəti: strateji baxış, missiya bəyanatı, strateji hədəflər | **STRATEJİ BAXIŞ:** Həyat sığorta sahəsində dinamik və planlı şəkildə inkişaf edərək ölkəmizdə müştərilər və partnyorlar üçün seçilən həyat sığorta şirkəti olmaq<br>**MİSSİYA:** Peşəkar və dinamik inkişaf edən komandamız ilə müştərilər və tərəfdaşları əlverişli, etibarlı, rəqəmsal və çevik həyat sığortası məhsulları ilə təmin etmək, ölkəmizdə həyat sığorta sahəsinin inkişafına töhvə vermək<br>**STRATEJİ HƏDƏFLƏR:**<br>1) Yeni sığorta növləri hesabına sığorta haqlarının artımı<br>2) Şirkətdaxili proseslərin avtomatlaşdırılması və rəqəmsallaşmanın inkişaf etdirilməsi<br>3) Şirkətin informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyinin gücləndirilməsi<br>4) Korporativ idarəetmə standartlarının tətbiqi<br>5) Komanda ruhunun gücləndirilməsi, işçilərin peşəkarlığının artırılması və əmək şəraitinin yaxşılaşdırılması<br>6) "Meqa Həyat Sığorta" brendinin daha geniş kütləyə çatdırılması<br>7) Mühasibatlıq və Hesabatlılıq şöbələri üzrə proseslərin avtomatlaşdırılması<br>8) Fərdi və korporativ həyat sığortası üzrə yeni məhsulların hazırlanması |
| **2.1.9** | Sığortaçıya verilmiş reytinqlər barədə məlumatlar: reytinq agentliyinin adı, reytinqin verildiyi tarix, sığortaçının cari və əvvəlki reytinqi və s. | Sığortaçı heç bir xarici reytinq agentliyi tərəfindən qiymətləndirilməmişdir. |

| 3. KORPORATİV İDARƏETMƏ ÇƏRÇİVƏSİ | | |
|---|---|---|
| **3.1.1** | Sığortaçının təşkilati strukturu | Təşkilati strukturun forması təsdiqlənmiş və "pdf" formatında rəsmi internet səhifəsində yerləşdirilmişdir. *(https://megalife.az/m/11/company-structure)* |
| **3.1.2** | Direktorlar Şurası, İdarə Heyəti, II və III müdafiə xətti funksiyalarının əsas vəzifələrinin qısa təsviri | **Direktorlar Şurası** şirkətdə ümumi rəhbərliyi və onun fəaliyyətinə nəzarəti həyata keçirir. Şirkətin idarəetmə orqanlarının üzvlərini və müəyyən rəhbər şəxsləri təyin edir, strategiyasını müəyyən edir və daxili qaydalarını təsdiq edir.<br>**İdarə Heyəti** strateji plan hazırlayır və icrasını təmin edir. DŞ tərəfindən təsdiq olunan sənədlərin icrasını təmin edir. Mərkəzi Banka hesabatların vaxtında təqdim edilməsini təmin edir. Hər bir üzv öz səlahiyyəti dairəsi çərçivəsində müvafiq struktur bölmələrə kuratorluğu həyata keçirir.<br>**II müdafiə xətti** risklərin idarə olunması, aktuar və komplayens funksiyalarını icra edən struktur bölmələri əhatə edən formada təşkil edilib. Risklərin idarə olunması funksiyası şirkətin qarşılaşdığı risklərin monitorinqini aparır, müvafiq sənədləri hazırlayır və digər struktur bölmələrə risklərin idarə olunması ilə bağlı dəsdək göstərir. Komplayens funksiyası şirkətin fəaliyyətinin qanunvericiliyə uyğunluğuna nəzarət edir. Şirkətin fəaliyyətində mövcud olan komplayens risklərini aşkarlayır və monitorinq edir. Aktuar funksiyası sığorta ehtiyatlarının hesablanmasını həyata keçirən struktur bölməyə nəzarəti həyata keçirir və müvafiq siyasətlərə rəy verir. Hər üç funksiya fəaliyyətləri ilə bağlı DŞ-yə hesabatlar təqdim edir.<br>**III müdafiə xətti** daxili audit funksiyasını icra edən struktur bölmə əsasında təşkil edilmişdir. Daxili audit funksiyası II müdafiə xəttini icra edən struktur bölmələr də daxil olmaqla şirkətin bütün struktur bölmələrinin, nümayəndəlik və filiallarının fəaliyyətini müstəqil şəkildə yoxlayır. Yoxlamalarla bağlı hesabatlar tərtib edərək DŞ, AK və İH-yə təqdim edir. |
| **3.1.3** | Fəaliyyət göstərən komitələr, əsas vəzifələri və tərkibi | **Audit Komitəsi** 3 üzvdən ibarətdir: sədr, üzv və müstəqil üzv. Komitə Daxili audit funksiyasını icra edən struktur bölmənin fəaliyyətinə birbaşa nəzarət edir. Komitə uçot siyasətini təkmilləşdirilməsinə, maliyyə hesabatlarının şəffaflığına, şirkətin daxili proseslərinin qanunauyğunluğuna nəzarət edir. Daxili audit planını və il ərzində aparılan daxili audit hesabatlarını MB-a təqdim edir.<br>**Riskləri İdarəetmə Komitəsi** 3 üzvdən ibarətdir: sədr və 2 müstəqil kənar üzv. Komitə risklərin idarə olunması sistemi ilə əlaqədar sənədləri təsdiq üçün DŞ-ə təqdim edir. Risklərin idarə olunması ilə bağlı İH-nin fəaliyyətinə nəzarət edir. Baş Risk İnzibatçısından dövri olaraq hesabatlar alır. Şirkətdə mövcud olan risk mədəniyyəti ilə bağlı DŞ-yə hesabat təqdim edir. |
| **3.1.4** | Hesabat dövrü ərzində korporativ idarəetmədə əhəmiyyətli dəyişikliklər — varsa | Riskləri İdarəetmə Komitəsinin üzvləri, Baş Risk İnzibatçısı, risklərin idarə olunması, komplayens, aktuar funksiyalarını icra edən struktur bölmələrin rəhbərləri təyin edilmişdir. |
| **3.2.1** | Sığortaçının daxili nəzarət sisteminin təsviri | Daxili nəzarət sistemi risklərin idarə olunması, aktuar, komplayens və daxili audit funksiyaları tərəfindən həyata keçirilir. Daxili audit funksiyası Audit Komitəsinə, komplayens funksiyası Baş Komplayens İnzibatçısına, aktuar funksiyası Məsul Aktuariyə, risklərin idarə olunması funksiyası Baş Risk İnzibatçısına tabedir. |
| **3.2.2** | Komplayens funksiyasının həyata keçirilməsinin ümumi təsviri | Komplayens funksiyası Baş Komplayens İnzibatçısı və Komplayens şöbəsi tərəfindən həyata keçirilir. Komplayens funksiyası şirkətin fəaliyyətini tənzimləyən qanunvericiliyə və daxili qaydalara riayət olunmasını təmin edir. Komplayens riskləri aşkarlayır və İH və birinci müdafiə xəttinə daxil olan struktur bölmələrə komplayens risklərinin idarə olunması ilə bağlı dəsdək göstərir. |
| **3.3.1** | Daxili audit funksiyasının həyata keçirilməsinin ümumi təsviri | Daxili audit funksiyası Daxili Audit Xidməti tərəfindən həyata keçirilir. Daxili audit funksiyası daxili nəzarət və risklərin idarə edilməsi sisteminin keyfiyyəti və effektivliyi ilə bağlı Direktorlar Şurasına və İdarə Heyətinə dəstək xidməti göstərir. Daxili audit funksiyası şirkətin bütün fəaliyyət sahələrini yoxlayır və aşkarladığı uyğunsuzluqları hesabatında əks etdirir. Hesabatlar Direktorlar Şurasına təqdim edilir. Aşkarlanan çatışmazlıqların aradan qaldırılması monitorinqi İdarə Heyəti ilə birgə həyata keçirilir. |
| **3.3.2** | Daxili audit funksiyasının müstəqilliyi və obyektivliyinin təmin olunmasının ümumi təsviri | Daxili Audit Xidməti təşkilati strukturda müstəqil struktur bölmə kimi birbaşa AK və DŞ-yə tabe edilmişdir. Xidmətin əsasnaməsində onun müstəqilliyi, imtiyazları və resurs təminatı əks olunmuşdur. Xidmətin şirkətin bütün məlumat bazasına, daxili informasiya sistemlərinə əmlakına tam və qeyd-şərtsiz çıxışı təmin edilmişdir. |

| | | |
|---|---|---|
| **3.4** | Aktuar funksiyasının həyata keçirilməsinin ümumi təsviri | Aktuar funksiyası Aktuariat şöbəsi tərəfindən həyata keçirilir. Aktuariat şöbəsi sığorta ehtiyatları ilə bağlı aktuar hesablamalarının aparılmasını həyata keçirən struktur bölməyə (Hesabatlıq şöbəsi) nəzarəti həyata keçirir. Anderraytinq şərtləri və tariflərinin müəyyən edilməsi siyasətinə və təkrarsığorta əməliyyatları üzrə siyasətə rəy verir. Şöbəyə birbaşa nəzarət Məsul Aktuaridə saxlanılmaqla ümumi nəzarət Baş Risk İnzibatçısı tərəfindən həyata keçirilir. |
| **3.5.1** | Risk növlərinin, idarəetmə prosesinin, nəzarət mexanizminin və risk funksiyasının ümumi təsviri | Riskləri idarəetmə funksiyası Risklərin idarə olunması Departamenti tərəfindən həyata keçirilir. Departament tərəfindən risklərin idarə olunması ilə bağlı sənədlər hazırlanır və tətbiq olunur. Departament şirkətin fəaliyyətində mövcud olan bütün riskləri müəyyənləşdirmək məqsədilə yoxlamalar həyata keçirir. Risklərin növləri risk iştahası bəyənnaməsində göstərilmişdir. Burada bütün növ risklər üçün limitlər müəyyən edilmişdir. Limitlərin aşılıb-aşılmaması mütəmadi monitorinq edilir və monitorinqin nəticələri ilə bağlı hesabatlar hazırlanaraq Baş Risk İnzibatçısı, İH, RİK və DŞ-yə təqdim olunur. |
| **3.5.2** | Risk idarəetmə sisteminin təşkilati struktura və qərar qəbul etmə proseslərinə inteqrasiyasının təsviri | Risklərin idarəetmə sisteminə nəzarət DŞ tərəfindən həyata keçirilir. Bu istiqamətdə nəzarəti gücləndirmək məqsədilə RİK DŞ-yə dəsdək göstərir. RİK Baş Risk İnzibatçısının fəaliyyətinə nəzarət etməklə, onun fəaliyyətini illik olaraq qiymətləndirir, risklərin idarə olunması sistemi ilə əlaqədar bütün hesabatları ondan alaraq DŞ-yə təqdim edir. Baş Risk İnzibatçısı isə Risklərin idarə olunması Departamentinə nəzarət edir, sənədlərin hazırlanması, monitorinqlərin və yoxlamaların aparılması və risklərin idarə olunması sisteminin qurulması ilə bağlı digər işlərlə bağlı tapşırıqlar verir.<br>DŞ və İH risklərin idarə olunması ilə bağlı təqdim olunan hesabatlarla şirkətdə mövcud olan risklərin idarə olunması sistemi ilə bağlı məlumatlandırılır. Bu məlumatlar qərar qəbul etmə prosesində nəzərə alınır. |
| **3.6** | Sığortaçının kənardan xidmət alınması (autsorsinq) siyasəti, autsorsinq üçün əsaslandırmanın təsviri və autsorsinqə cəlb olunan subyektlərin siyahısı | Şirkət autsorsinq fəaliyyətini daxili normativ sənədlər və Azərbaycan Respublikasının sığorta qanunvericiliyi çərçivəsində həyata keçirir. Şirkət müəyyən funksiyaları autsorsinq vasitəsilə həyata keçirərək xərcləri optimallaşdırır, müasir texnologiyalara çıxış əldə edir və iş həcminə uyğun resursları tənzimləyir. Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun hesabatların hazırlanması autsorsinq yolu ilə təmin edilir. |

| 6. SIĞORTAÇININ BAZAR DAVRANIŞI | | |
|---|---|---|
| **6.1.1** | Müştərilərlə ədalətli rəftar olunması, şəxsi məlumatlarının məxfiliyinin qorunması və zərərlərin vaxtında və ədalətli qiymətləndirilməsi üzrə sığortaçının strateji baxışının ümumi təsviri | Şirkət müştəri məmnuniyyətini uzunmüddətli inkişafın əsası hesab edir. Ədalətli rəftar, məxfilik və sürətli zərər ödənişi — şirkətin brendinə və etibarına birbaşa təsir edən strateji dəyərlər kimi qəbul edilir. Bu sahələrdə göstəricilər müntəzəm olaraq müştəri məmnuniyyəti sorğuları vasitəsilə ölçülür və hesabatlara əks etdirilir. |
| **6.1.4** | Şikayətlərin irəli sürülməsi və idarə olunması prosesinin ümumi təsviri | Müştərilər şikayətlərini həm yazılı, həm də şifahi formada müvafiq struktur bölmələrə və ya məsul şəxslərə bildirirlər. Şikayətlər şirkətin daxili normativ sənədi ilə müəyyənləşdirilmiş qaydada qeydiyyata alınır və araşdırılma mərhələsi üçün müvafiq struktur bölməyə (bölmələrə) ötürülür və məsul şəxslər tərəfindən cavablandırılır. |
| **6.1.5** | Mübahisələrin həll olunması mexanizmlərinin ümumi təsviri | Mübahisələr ilk növbədə tərəflər arasında danışıqlar yolu ilə, bu mümkün olmadıqda isə Mərkəzi Banka şikayət etməklə, məhkəməyə müraciət vasitəsilə həll edilir. |
| **6.2** | Bazar davranışları ilə bağlı digər əhəmiyyətli məlumatlar — varsa | - |

*"Sığortaçılarda korporativ idarəetmə*
Standartları"na Əlavə 4

**Sığortaçının biznes əməliyyatlarının ümumi nəticələri**

***(manatla)***

| | ***Hesabat tarixi (31.12.2025)*** | ***Bir il əvvəlki hesabat tarixi (31.12.2024)*** | ***Fərq*** |
|---|---|---|---|
| ***Gəlirlər, o cümlədən:*** | **17 291 380,83** | **8 193 025,49** | **9 098 355,34** |
| *Əsas əməliyyat gəlirləri* | *18 247 886,37* | *11 679 799,35* | *6 568 087,02* |
| *İnvestisiya gəlirləri* | *4 021 311,66* | *2 607 828,45* | *1 413 483,21* |
| *Xalis sığorta ehtiyatlarının dəyişməsi* | *- 5 071 515,94* | *- 6 132 896,44* | *1 061 380,50* |
| *Digər gəlirlər* | *93 698,74* | *38 294,13* | *55 404,61* |
| ***Xərclər, o cümlədən:*** | **12 574 961,53** | **6 288 037,13** | **6 286 924,40** |
| *Əsas əməliyyat xərcləri* | *6 477 874,65* | *2 050 853,95* | *4 427 020,70* |
| *İşlərin aparılması xərcləri* | *6 095 033,03* | *4 233 457,84* | *1 861 575,19* |
| *Digər xərclər* | *2 053,85* | *3 725,34* | *- 1 671,49* |
| ***Maliyyə mənfəəti/zərəri*** | **4 716 419,30** | **1 904 988,36** | **2 811 430,94** |
| ***Mənfəət vergisi*** | **943 283,86** | **380 997,67** | **562 286,19** |
| ***Xalis mənfəət/zərər*** | **3 773 135,44** | **1 523 990,69** | **2 249 144,75** |

**_Biznes əməliyyatlarının nəticələri – həyat sığortası sahəsi_**

***(manatla)***

| ***Sığorta sinifləri*** | ***Hesabat tarixi (31.12.2025)*** | | ***Bir il əvvəlki hesabat tarixi (31.12.2024)*** | | ***Fərq*** | |
|---|---|---|---|---|---|---|
| | *Sığorta haqları* | *Sığorta ödənişləri* | *Sığorta haqları* | *Sığorta ödənişləri* | *Sığorta haqları* | *Sığorta ödənişləri* |
| ***Əsas sığorta sinifləri*** | ***17 877 384,77*** | ***4 553 049,89*** | ***11 558 349,26*** | ***1 027 667,40*** | ***5 682 170,36*** | ***3 525 382,49*** |
| Həyatın yaşam sığortası | 7 181 993,51 | 3 722 678,13 | 3 707 019,50 | 791 150,70 | 3 474 974,01 | 2 931 527,43 |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 6 766 784,83 | 400 718,78 | 4 559 588,48 | 89 426,72 | 2 207 196,35 | 311 292,06 |
| Həyatın ölüm halından sığortası | 3 928 606,43 | 429 652,98 | 3 291 741,28 | 147 089,98 | 636 865,15 | 282 563,00 |
| ***Digər sığorta sinifləri*** | **40 171,10** | **30 000,00** | **46 513,04** | **-** | **- 6 341,94** | **30 000,00** |
| Sağalmaz xəstəliklərdən sığorta | 40 171,10 | 30 000,00 | 46 513,04 | - | - **6 341,94** | 30 000,00 |
| ***Cəmi*** | ***17 917 555,87*** | ***4 583 049,89*** | ***11 604 862,30*** | ***1 027 667,40*** | ***5 675 828,42*** | ***3 555 382,49*** |

*“Sığortaçılarda korporativ idarəetmə*
Standartları”na Əlavə 7

**İnvestisiya portfeli barədə məlumat**

***(manatla)***

| ***İnvestisiyalar*** | ***Hesabat tarixi (31.12.2025)*** | ***Bir il əvvəlki hesabat tarixi (31.12.2024)*** | ***Fərq*** |
|---|---|---|---|
| ***İstiqrazlar, o cümlədən:*** | **20 912 184,01** | **39 979 053,85** | **- 19 066 869,84** |
| *dövlət istiqrazları* | *17 788 778,43* | *36 823 423,34* | *- 19 034 644,91* |
| *qeyri-dövlət istiqrazları* | *3 123 405,58* | *3 155 630,51* | *- 32 224,93* |
| ***Səhmlər*** | | | |
| ***İnvestisiya fondlarına yerləşdirilmiş aktivlər*** | | | |
| ***Törəmə maliyyə alətləri*** | | | |
| ***Daşınmaz əmlaklar (öz istifadəsi üçün olmayan)*** | | | |
| ***Depozitlər*** | **11 223 027,33** | **5 005 745,56** | **6 217 281,77** |
| ***Digər investisiyalar*** | **100 000,00** | **100 000,00** | - |
| ***Cəmi*** | **32 235 211,34** | **45 084 799,41** | **- 12 849 588,07** |

**Xalis investisiya mənfəəti/zərəri barədə məlumat**

**(manatla)**

| | **İstiqrazlar** | | **Səhmlər** | | **Depozitlər** | | **Daşınmaz əmlaklar** | | **Digər investisiyalar** | | **Cəmi** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* |
| *Faiz / dividend gəliri* | 2 699 999,68 | 2 108 164,35 | | | 650 559,67 | 484 801,44 | | | | | 3 350 559,35 | 2 592 965,79 |
| *Reallaşdırılmış gəlir/xərc* | 670 752,31 | 14 862,66 | | | | | | | | | 670 752,31 | 14 862,66 |
| *Yenidənqiymətləndirmə* | | | | | | | | | | | | |
| *İnvestisiya xərcləri* | 1 360 561,85 | 501 634,04 | | | | | | | | | 1 360 561,85 | 501 634,04 |
| ***Xalis investisiya mənfəəti/zərəri*** | 2 010 190,14 | 1 621 392,97 | | | 650 559,67 | 484 801,44 | | | | | 2 660 749,81 | 2 106 194,41 |

**Aktivlərin təsnifatı barədə məlumatlar**

***(manatla)***

| Aktivlər | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentləri, o cümlədən:** | ***973 214,45*** | ***908 815,91*** | ***64 398,54*** |
| *Milli valyutada olan hesabdakı vəsaitlər* | *955 544,62* | *890 515,71* | *65 028,91* |
| *Xarici valyutada olan hesabdakı vəsaitlər* | *17 669,83* | *18 300,20* | - *630,37* |
| *Sair pul vəsaitləri* | | | |
| **İnvestisiya aktivləri, o cümlədən:** | ***32 135 211,34*** | ***44 984 799,41*** | - ***12 849 588,07*** |
| *İstiqrazlar* | *20 912 184,01* | *39 979 053,85* | - *19 066 869,84* |
| *İştirak payı metodu ilə uçota alınmış investisiyalar* | | | |
| *Səhmlər* | | | |
| *İnvestisiya fondlarına yerləşdirilmiş aktivlər* | | | |
| *Törəmə maliyyə alətləri* | | | |
| *Daşınmaz əmlak (öz istifadəsi üçün olmayan)* | | | |
| *Depozitlər* | *11 223 027,33* | *5 005 745,56* | *6 217 281,77* |
| *Digər investisiya aktivləri* | | | |
| **Debitor borclar, o cümlədən:** | ***1 772 764,44*** | ***1 793 522,48*** | - ***20 758,04*** |
| *Birbaşa sığorta üzrə* | *1 138 201,06* | *806 419,22* | *331 781,84* |
| *Təkrarsığorta əməliyyatları üzrə* | *100 879,16* | *1 426,82* | *99 452,34* |
| *Sığorta vasitəçiləri üzrə* | | | |
| *Sair debitorlar* | *533 684,22* | *985 676,44* | - *451 992,22* |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı, o cümlədən:** | ***155 489,93*** | ***64 519,96*** | ***90 969,97*** |
| *Həyat sığortası sahəsi üzrə* | *155 489,93* | *64 519,96* | *90 969,97* |
| *Qeyri-həyat sığortası sahəsi üzrə* | | | |
| **Torpaq, tikili və avadanlıqlar (öz istifadəsi üçün olan)** | ***294 625,51*** | ***115 505,13*** | ***179 120,38*** |
| **Qeyri-maddi aktivlər** | ***145 354,47*** | ***161 782,74*** | - ***16 428,27*** |
| **Təxirə salınmış vergi aktivləri** | | | |
| **Digər aktivlər** | ***366 545,63*** | ***218 063,81*** | ***148 481,82*** |
| **Cəmi** | ***35 843 205,77*** | ***48 247 009,44*** | - ***12 403 803,67*** |

*“Sığortaçılarda korporativ idarəetmə*
Standartları”na Əlavə 10

**Öhdəliklərin təsnifatı barədə məlumatlar**

**(manatla)**

| *Öhdəliklər* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Fərq* |
|---|---|---|---|
| ***Sığorta ehtiyatları, o cümlədən:*** | **15 456 407,04** | **10 293 921,13** | **5 162 485,91** |
| *Həyat sığortası sahəsi üzrə* | *15 456 407,04* | *10 293 921,13* | *5 162 485,91* |
| *Qeyri-həyat sığortası sahəsi üzrə* | | | |
| ***Faiz xərcləri yaradan öhdəliklər, o cümlədən:*** | **-** | **21 456 736,67** | **- 21 456 736,67** |
| *Bank kreditləri üzrə* | | | |
| *Qiymətli kağızlar üzrə* | - | *21 456 736,67* | *- 21 456 736,67* |
| *Digər faiz xərci yaradan öhdəliklər* | | | |
| ***Kreditor borcları, o cümlədən:*** | **2 054 457,90** | **1 103 501,01** | **950 956,89** |
| *Birbaşa sığorta üzrə* | *267 694,94* | *176 096,78* | *91 598,16* |
| *Təkrarsığorta əməliyyatları üzrə* | - | - | - |
| *Sığorta vasitəçiləri üzrə* | *965 370,11* | *546 634,99* | *418 735,12* |
| *Sair kreditorlar* | *821 392,85* | *380 769,24* | *440 623,61* |
| ***Törəmə maliyyə alətlərindən yaranan öhdəliklər*** | | | |
| ***Digər öhdəliklər*** | **2 101 355,77** | **1 395 566,52** | **705 789,25** |
| ***Cəmi*** | **19 612 220,71** | **34 249 725,33** | **- 14 637 504,62** |

“Sığortaçılarda korporativ idarəetmə
Standartları”na Əlavə 12

***Həyat sahəsi üzrə ümumi sığorta ehtiyatlarının təsnifatı barədə məlumatlar***

***(manatla)***

| Sığorta ehtiyatları | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| Riyazi ehtiyatlar | 13622522,54 | 9304944,65 | 4317577,89 |
| Zərərlər ehtiyatı | 1598713,83 | 838059,42 | 760654,41 |
| Digər sığorta ehtiyatları | 235170,67 | 150917,06 | 84253,61 |
| **Cəmi** | **15456407,04** | **10293921,13** | **5162485,91** |

***Həyat sahəsi üzrə sığorta sinifləri üzrə sığorta ehtiyatlarının təsnifatı barədə məlumatlar***

***(manatla)***

| Sığorta sinifləri üzrə | Hesabat tarixi | | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) |
| Əsas sığorta sinifləri | **15365107,05** | **15280211,11** | **10267012,11** | **10206549,01** | **5098094,94** | **5073662,10** |
| Həyatın ölüm halından sığortası | 3426008,59 | 3391020,06 | 2562604,83 | 2532989,72 | 863403,76 | 858030,34 |
| Həyatın yaşam sığortası | 8231221,50 | 8231221,50 | 5248005,23 | 5248005,23 | 2983216,27 | 2983216,27 |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 3707876,96 | 3657969,55 | 2456402,05 | 2425554,06 | 1251474,91 | 1232415,49 |
| Digər sığorta sinifləri | **91299,99** | **20706,00** | **26909,02** | **22852,16** | **64390,97** | **-2146,16** |
| Sağalmaz xəstəliklərdən sığorta | 91299,99 | 20706,00 | 26909,02 | 22852,16 | 64390,97 | -2146,16 |
| **Cəmi** | **15456407,04** | **15300917,11** | **10293921,13** | **10229401,17** | **5162485,91** | **5071515,94** |

*“Sığortaçılarda korporativ idarəetmə*
Standartları”na Əlavə 13

**Balans kapitalının təsnifatı barədə məlumatlar**

***(manatla)***

| *Öhdəliklər* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Fərq* |
|---|---|---|---|
| ***Ödənilmiş nominal (nizamnamə) kapital*** | **11 000 000,00** | **11 000 000,00** | **-** |
| ***Emissiya gəliri*** | | | |
| ***Geri alınmış kapital (səhmlər)*** | | | |
| ***Kapital ehtiyatları, o cümlədən:*** | | | |
| *Yenidən qiymətləndirilmə üzrə ehtiyat* | | | |
| *Digər kapital ehtiyatları* | | | |
| ***Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)*** | **5 230 985,06** | **2 997 284,11** | **2 233 700,95** |
| ***Cəmi*** | **16 230 985,06** | **13 997 284,11** | **2 233 700,95** |

*“Sığortaçılarda korporativ idarəetmə*
Standartları”na Əlavə 14

**Kapital normativləri barədə məlumatlar**

***(manatla)***

| *Kapital* | *Hesabat tarixi (31.12.2025)* | *Bir il əvvəlki hesabat tarixi (31.12.2024)* | *Fərq* |
|---|---|---|---|
| ***Məcmu kapital*** | **12 721 581,16** | **11 617 854,19** | **1 103 726,97** |
| ***Tələb olunan kapital, o cümlədən:*** | **10 000 000,00** | **10 000 000,00** | - |
| *Tələb olunan kapitalın minimum məbləği* | 10 000 000,00 | 10 000 000,00 | - |
| *Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi* | 1 103 379,16 | 927 768,28 | 175 610,88 |
| ***Kapital buferi*** | **2 721 581,16** | **1 617 854,19** | **1 103 726,97** |

*“Sığortaçılarda korporativ idarəetmə*
Standartları”na Əlavə 15

**Sığorta hadisələrinin statistikası**

***(manatla)***

| **Əsas sığorta növləri** | **Sığorta hadisələrinə dair məlumat** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Rübün (ilin) əvvəlinə tənzimlənməmiş sığorta hadisələrinin sayı | Rüb (il) ərzində baş vermiş sığorta hadisələrinin sayı | Rüb (il) ərzində tənzimlənmiş sığorta | | | Rübün (ilin) sonunda tənzimlənməmiş sığorta hadisələrinin sayı | Sığorta hadisələrinin ortalama tənzimlənmə müddəti | Sığorta hadisələrinin tənzimlənmə əmsalı | Sığorta ödənişindən imtina əmsalı | Rüb (il) ərzində barəsində məhkəmə işi davam edən sığorta hadisələrinin əmsalı |
| | | | Sığorta ödənişi verilmiş sığorta hadisələrinin sayı | Sığorta ödənişindən imtina verilmiş sığorta hadisələrinin sayı | Cəmi | | | | | |
| | I | II | III | IV | V=III+IV | VI=(I+II)-V | VII | VIII = V/(I+II) | IX=IV/V | X |
| **İcbari:** | 1 | 11 | 4 | 0 | 4 | 8 | 185 | 0,33 | 0,00 | - |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 1 | 11 | 4 | 0 | 4 | 8 | 185 | 0,33 | 0,00 | - |
| **Könüllü:** | 4 | 179 | 151 | 14 | 165 | 18 | 13 | 0,90 | 0,08 | 0,01 |
| Kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi | 2 | 62 | 49 | 9 | 58 | 6 | 26 | 0,91 | 0,16 | 0,02 |
| Həyatın Yaşam Sığortası | 2 | 86 | 84 | 0 | 84 | 4 | 4 | 0,95 | 0,00 | - |
| Həyat Sığortası | 0 | 28 | 17 | 4 | 21 | 7 | 13 | 0,75 | 0,19 | - |
| Sağalmaz xəstiliklərdən sığorta | 0 | 3 | 1 | 1 | 2 | 1 | 12 | 0,67 | 0,50 | - |

*"Sığortaçılarda korporativ idarəetmə*
Standartları"na Əlavə 16

**Şikayətlərin statistikası**

***(manatla)***

| ***Əsas sığorta növləri*** | ***Şikayətlərə dair məlumat*** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | ***Rübün (ilin) əvvəlinə həll edilməmiş şikayətlərin sayı*** | ***Rüb (il) ərzində daxil olmuş şikayətlərin sayı*** | ***Rüb (il) ərzində həll edilmiş şikayətlərin sayı*** | ***Rübün (ilin) sonuna həll edilməmiş şikayətlərin sayı*** | ***Rüb (il) ərzində təmin edilməmiş şikayətlərin sayı*** | ***Şikayətin ortalama həll edilmə müddəti*** | ***Rüb (il) ərzində həll edilmiş şikayətlərin əmsalı*** | ***Rüb (il) ərzində həll edilmiş şikayətlərdə təmin edilməmiş şikayətlərin payı*** |
| | *I* | *II* | *III* | *IV=(I+II)-III* | *V* | *VI* | *VII=III/(I+II)* | *VIII=V/III* |
| ***İcbari:*** | - | - | - | - | - | - | - | - |
| *İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta* | - | - | - | - | - | - | - | - |
| ***Könüllü:*** | - | **2,00** | **2,00** | - | - | - | - | - |
| *Kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığorta* | - | - | - | - | - | - | - | - |
| *Həyatın yaşam sığortası* | - | 2,00 | 2,00 | - | - | 1.5 gün | *1,00* | - |
| *Həyat sığortası* | - | - | - | - | - | - | - | - |

*“Sığortaçılarda korporativ idarəetmə*
Standartları”na Əlavə 17

***Sığorta müqavilələrinə dair məlumatlar***

***(manatla)***

| ***Əsas sığorta növləri*** | ***Sığorta müqavilələrinin yenilənmə əmsalı*** |
|---|---|
| ***İcbari:*** | ***0,52*** |
| *İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta* | *0,52* |
| ***Könüllü:*** | ***0,09*** |
| *Kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası* | *0,09* |
| *Həyatın Yaşam Sığortası* | *0,15* |
| *Həyat Sığortası* | *0,30* |

Əlaqə Məlumatı:

Bu hesabatla bağlı sorğuların cavablandırılmasına məsul şəxs:


Sadıqova Fatimə Yahya

Vəzifə: Marketinq və PR şöbəsinin meneceri

Telefon: +994 55 450 06 18

E-mail: fatima.sadigova@megalife.az


Hesabatın yerləşdirilmə tarixi: 26.05.2026